“Tərtər dövlət qətliamı” haqqında çıxarılan hökmlər barədə

millət vəkili Məmmədov Qurban Cəlal oğlunun

Xalq Parlamentində çıxışı

Hörmətli millət vəkilləri, hörmətli sədr.

“Tərtər dövlət qətliamı”, hörmətli millət vəkili Ərəstun Oruclunun təbirincə, “Əsrin cinayəti” haqqında ilk məruzəm bu uca kürsüdə Tərtər dövlət qətliamının “törədilmə şəraiti, səbəbləri, vəzifələrimiz və nəticələr haqqında” mövzuya həsr edilmişdi.

Bu gün isə vaxtınızı çox almadan, siz dəyərli millət vəkillərini və bu gün bizi izləyən yüz minlərlə vətəndaşımızı, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 15.5.-ci maddəsinə əsasən, bu **xüsusilə ağır cinayət** hesab edilən dəhşətli cinayətə görə Azərbaycan məhkəmələrinin çıxardığı hökmlərlə tanış edəcəyəm.

CM-nin 15.5.ci maddəsinə əsasən, “bu Məcəllə ilə qəsdən törədilməsinə görə **on iki ildən artıq** azadlıqdan məhrum etmə cəzası və ya daha ağır cəza nəzərdə tutulmuş əməllər xüsusilə ağır cinayətlər hesab olunur”.

Bəri başdan deyim ki, Tərtər dövlət qətliamı üzrə ittiham edilən şəxslərə verilən ittihamlarda ən ağır cəzanın yüksək həddi 12 iledəkdir.

CM-nin 126.3-cü maddəsi. Bu Məcəllənin 126.1 və 126.2-ci maddələrində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda.

CM-nin 126.2. -ci maddəsinə əsasən, “Eyni əməllər:

126.2.1. iki və ya daha çox şəxsə qarşı, habelə təkrar və ya bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən törədildikdə;

126.2.2. zərərçəkmiş şəxsin xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar onun özü və ya yaxın qohumları barəsində törədildikdə;

126.2.3. xüsusi amansızlıqla, o cümlədən zərərçəkmiş şəxsə ağır iztirablar verməklə və ya sifarişlə, habelə təqsirkar üçün aşkar surətdə köməksiz vəziyyətdə olan şəxsə qarşı törədildikdə;

126.2.4. ümumi təhlükəli üsulla, xuliqanlıq niyyətilə;

126.2.5. zərərçəkmiş şəxsin orqanlarından və ya toxumalarından istifadə etmək məqsədilə törədildikdə— altı ildən on bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Bu sadalanan əməllər şəxsin ölümüylə nəticələnəndə CM-nin 126.3-cü maddəsi ilə cəza verilir.

Başqa sözlə, Tərtər dövlət qətliamının xüsusilə ağır cinayətlər kateqoriyasına aid edilməməsi üçün düşünülmüş şəkildə bu ittihamlar verilib.

Rəsmi İttiham Aktında “yuxarı komandanlıq tərəfindən təşkil edilən mütəşəkkil dəstədə” iştirak etdiklərinə görə ittiham edilsələr də, Tərtər işi üzrə, eləcə də Beyləqan işi ilə bağlı (Adil

sabirlinin öldürülməsinə aid olan iş, general Bəkir Orucovun həbs edildiyi iş nəzərdə tutulur ) çıxadılan hökmlərdə "yuxarı komandanlıq" dedikdə kimlər nəzərdə tutulur, bu suala cavab verilmir.

Bir mütəşəkkil dəstənin üzvü kimi ittiham edilən şəxslər 4 qrupa bölünərək, ayrı-ayrı 4 hökm çıxarılıb.

1. General Bəkir orucov və başqalrı ( beyləqan işi üzrə, mais barudarovun 2-ci Korpusunda törədilən cinayət)
2. Ələsgərov Vüsal Əziz oğlu, Niftəliyev Rəşid Ağaşərif oğlu, Qarayev Ramil Fariz oğlu və Ələsgərov Rüstəm Çərkəz oğlu. Hökn çıxaran Bakı hərbi məhkəməsinin hakimləri: Ağayev Zeynal Qurban oğlu oğlu (sədrlik edən), Ramazanov Camal Cumar oğlu və Abbasov Rafiq Qaraxan oğlu. Verilən cəzalar: Ələsgərov Vüsal Əziz oğlu-5 (beş) il 6 (altı) ay azadlıqdan məhrum etmə, Niftəliyev Rəşid Ağaşərif oğlu-5 (beş) il 6 (altı) ay azadlıqdan məhrum etmə, Qarayev Ramil Fariz oğlu-5 (beş) il 6 (altı) ay azadlıqdan məhrum etmə, Ələsgərov Rüstəm Çərkəz oğlu-9 (doqquz) il 6 (altı) ay müddətinə azadlıqdan məhrum etmə cəzası. Apellyasiya Məhkəməsi hökmü qüvvədə saxlayıb. Hakimlər: Abbasov Mirzəli Əbdüləli oğlu (sədr), Qaraqurbanlı Ramin Afad oğlu və İbrahimov Anar Firdovsi oğlu. Ali Məhkəmənin hakimləri: Yusifov Şahin Yaşar oğlu (sədrlik edən və məruzəçi), Novruzov Ələsgər Əli İskəndər oğlu və Abdulov Rəşad Məhərrəm oğlu hökmü qüvvədə saxlayıblar.
3. Mikayılov Ruslan Məhəmmədəli oğlu, Maşıyev Sənan Səxavət oğlu, Əliyev Elçin Kalam oğlu, Qəhrəmanov Cabir Babaxan oğlu. Hökm çıxaran Bakı Hərbi məhkəməsinin hakimləri: Ağayev Zeynal Qurban oğlu oğlu (sədrlik edən), Ramazanov Camal Cumar oğlu və Abbasov Rafiq Qaraxan oğlu. Təyin edilən cəzalar: Mikayılov Ruslan Məhəmmədəli oğlu-6 (altı) il 10 (on) ay 10 (on) gün müddətinə azadlıqdan məhrum etmə cəzası, Əliyev Elçin Kalam oğlu-5 (beş) il 8 (səkkiz) ay 5 (beş) gün müddətinə azadlıqdan məhrum etmə cəzası, Qəhrəmanov Cabir Babaxan oğlu-6 (altı) il 8 (səkkiz) ay 5 (beş) gün müddətinə azadlıqdan məhrum etmə cəzası, Maşıyev Sənan Səxavət oğlu-4 (dörd) il 10 (on) ay 10 (on) gün müddətinə azadlıqdan məhrum etmə. 187 zərərçəkmiş olub bu işdə. Apellyasiya Məhkəməsi hökmü qüvvədə saxlayıb. Hakimlər: Məmmədov Habil Çingiz oğlunun sədrliyi və məruzəsi ilə, Məmmədov Məmməd Allahverdi oğlu və Allahverdiyev Elbəy Hidayət oğlu. Ali Məhkəmə də həmçinin. Hakimlər: Cəfərov Vidadi Cəfər oğlu (sədrlik edən və məruzəçi), Rəcəbov İlkin Əbülfəz oğlu və Qılıcov İlqar Səyyad oğlu
4. Cümşüdov Qurban Qədim oğlu (04 (dörd) ilmüddətinə azadlıqdan məhrum etmə), Ağadadaşov Cavid Zahid oğlu (04 (dörd) il müddətinə azadlıqdan məhrum etmə), Əhmədov Ramil Bəşir oğlu (9 (doqquz) il 6 (altı) ay müddətinə azadlıqdan məhrum etmə), Axundov Fuad Arazi oğlu (09 (doqquz) il 06(altı) ay müddətinə azadlıqdan məhrum etmə), Ağayev Fuad Ramiz oğlu (13 (on üç) il müddətinə azadlıqdan məhrum etmə). Bakı Hərbi məhkəməsinin hakimləri: Ağayev Zeynal Qurban oğlu oğlu (sədrlik edən), Abbasov Rafiq Qaraxan oğlu və Ramazanov Camal Cumar oğlu. Apellyasiya

Məhkəməsinin hakimləri: Rəhimov Elmar Eldar oğlu (sədr və məruzəçi), Əyyubov Fərid İlham oğlu və Mehdiyev Emin Əlixan oğlu.

Mən bir hökm əsasında nələr baş verdiyini sizlərin diqqətinə çatdırmağa çalışacağam.

Vüsal Ələsgərov və başqaları haqqında olan hökm 1191 səhifədir.

Bu hökmlə:

1. 157 saylı hərbi hissənin komandiri, polkovnik Ələsgərov Vüsal Əziz oğlu,

2. 157 saylı hərbi hissənin qərargah rəisi Niftəliyev Rəşid Ağaşərif oğlu,

3. 157 saylı hərbi hissənin kəşfiyyatçısı Qarayev Ramil Fariz oğlu,

4. 703 saylı hərbi hissənin kəşfiyyatçısı Ələsgərov Rüstəm Çərkəz oğlu məhkum edilib.

Onlara qarşı irəli sürülən ittihamlar üzrə CM-nin 145.1 və ya 145.2-ci maddələrində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda, beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

- 293.2. (Dövlət orqanının vəzifəli şəxsi və ya bu vəzifəni icra edən digər şəxs tərəfindən xidməti vəzifələrinin icrası ilə əlaqədar və ya onun təhriki və ya razılığı ilə, yaxud onun bildiyi digər şəxslər tərəfindən törədildikdə);

- 341.2.2. (vəzifə səlahiyyətlərindən sui-istifadə və ya vəzifə səlahiyyətlərini aşma, silah tətbiq etməklə törədildikdə, ağır nəticələrə səbəb olduqda),

- 125. (Özünü intihar həddinə çatdırmaq) və

- 126.3. (Qəsdən sağlamlığa ağır zərər vurma, Məcəllənin 126.1 və 126.2-ci maddələrində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda, doqquz ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.) və onlara simvolik cəzalar verilib.

14 nəfərin öldürüldüyü bu cinayətdə (bu rəqəmi AzerFreedom TV müəyyən edir. Rejimin gizlətdiyi ölənlərin sayının 47-48 olması ilə bağlı əsaslı şübhələr var) təqsirləndirilən şəxslərə "qəsdən adam öldürmə" maddəsi ilə ittiham irəli sürülməyib.

Hökmün :

Səhifə 3-116 Vüsal Ələsgərova qarşı,

Səhifə 116-261 Rüstəm Ələsgərova qarşı,

261-399-cu səhifələr Ramil Qarayevə qarşı,

Rişid Niftəliyevə qarşı 399-536-cı səhifələr **prokurorluğun irəli sürdüyü ittihamlardır.**

536-541-ci səhifələr Vüsal Ələsgərovun məhkəmədə verdiyi ifadədir.

538, 539 və 540-cı səhifələrdə V.Ələsgərov qətliamın iştirakçısı olduğunu etiraf edir və bunu **yuxarı komandanlığın göstərişi ilə** etdiyini göstərir. **O, müdafiə naziri Zakir Həsənovun və Baş Qərargah rəisi Nəcməddin Sadıqovun bütün işgəncə proseslərinə rəhbərlik etdiyini, prosesləri onlayn izlədiyini, işgəncə prosesini isə general Hikmət Həsənovun şəxsən təşkil etdiyini, generallar Zakir Ağayev, Rasim Əliyev, Hilal Nəcəfov, Zahid Niftəliyev, polkovniklər: Babək Məmmədli və digər yüksək rütbəli ofislərdə iştirak etdiyini bildirir. işgəncə yeri. 540-cı səhifədə Respublika Hərbi Prokuroru ifadə verir ki, işgəncə prosesində general-leytenant Xanlar Vəliyev və onun müavini general-mayor Şəfahət İmranov iştirak edib, işgəncələri isə Cəfər Seyidovun rəhbərliyi altında 641 saylı hərbi hissənin (Dəniz Qüvvələri) əsgər və zabitləri həyata keçiriblər.**

541-544-cü səhifələr Rəşid Niftəliyevin məhkəmədəki ifadəsidir.

542-ci səhifədə Əlahiddə Ümumqoşun Ordusunun əsgər və zabitlərinin (səh. 542) və özünün (səh. 543) işgəncə prosesində iştirak etdiyini, işgəncə prosesinə general Hikmət Həsənovun (səh. 544) rəhbərlik etdiyini, 641 saylı hərbi hissənin əsgər və zabitlərinin isə Cəfər Seydovun (səhifə 5) göstərişi ilə işgəncələrə məruz qaldığını etiraf edir.

544-547-ci səhifələr Ramil Qarayevin ifadəsidir.

O, bu işgəncə prosesində yuxarı komandanlığın göstərişi ilə iştirak etdiyini (səh. 545-546) etiraf edir və işgəncələrə general Hikmət Həsənov və onun müavini Qiyas Abbasov və digər zabitlərin rəhbərlik etdiyini bildirir (səh. 547).

547-551-ci səhifələr Rüstəm Ələsgərovun ifadəsidir.

O, işgəncə zamanı mühafizə altında olması və gördükləri haqqında məlumat verir (səh. 548-549). O, həmçinin qətlə yetirilən Elxan Ağazadənin binanın ikinci mərtəbəsindən atıldığını (səh. 550), işgəncələrə general Hikmət Həsənovun rəhbərlik etdiyini, onun müavini Qiyas Abbasovun, yüksək rütbəli zabitlər Ruslan Ağasıyev, Mübariz Rzayev, Teymur Məmmədov və Məhərrəm Həsənovun işgəncə prosesində iştirak etdiyini və işgəncə prosesində iştirak etdiyini bildirir (550). Prokuror, general-leytenant Xanlar Vəliyev, işgəncə yerində (səh. 551) və özünün də işgəncə prosesində iştirak etdiyini etiraf etdiyini (səh. 551).

551-945-ci səhifələr işgəncə verənlərin və qurbanların ifadələridir. Bu ifadələrdə məruz qaldıqları işgəncələrdən bəhs edilir.

İşgəncənin mahiyyətini və dəhşətini başa düşmək üçün hökmün 819-822-ci səhifələrində işgəncə verən Məcid Kamal Qasımovun, 822-824-cü səhifələrdə işgəncə verən (zərərçəkmiş) Qorxmaz Əsgərxan Qasımovun, 938-ci səhifədə işgəncə verən Bəhruz Telman Novruzovun və işgəncə verən Allah Elmardının ifadələrini oxumaq kifayətdir. 941-945.

945-1103-cü səhifələr şahid ifadələridir.

Şahidlərdən:

- General Əsgərov Ramil Əliman oğlu, Baş Qərargah rəisi, general Nəcməddin Sadıqovun bacısı oğlu, (səh. 945-946.)

- Bəyov Firdovsi Feyzulla oğlu (səh. 947-951),

- Məmmədov Teymur Davud oğlu (951-961),

- Dəmirov Fərid Fəxrəddin oğlu (961-967) Bu şahid 641-ci Hərbi Dəniz Qüvvələrinin işgəncə prosesində iştirak etdiyini göstərir (səh. 964)

- Abdullayev Tural İsa oğlu (976-985). O, işgəncələrlə bağlı geniş açıqlama verib.

- Cavadov Anar Məmmədəli oğlu (992-999) işgəncələr, 641 saylı hərbi hissənin, generalların işgəncələrdə iştirakı, qətlə yetirilən Elxan Ağazadə və Saleh Qafarovun binanın ikinci mərtəbəsindən atılması ilə bağlı ifadə verib (səh. 998).

- Qasımov Fikrət Çoban oğlu (1000-1005) Anar Cavadovla eyni məzmunlu açıqlama verib.

- General-mayor Əliyev Rasim Məmmədəli oğlu (1036-1037) işgəncələrə general Hikmət Həsənovun şəxsən rəhbərlik etdiyini bildiyini və bu barədə Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən ona göstəriş verdiyi barədə geniş izahat verdi.

- Seyidov Cəfər Əziz oğlu (1040-1044) 641 saylı hərbi hissənin komandiri (Dəniz Qüvvələri - Dəniz pişikləri). Baş Qərargah rəisi Nəcməddin Sadıqovun göstərişi ilə işgəncə prosesində iştirak etdiyini etiraf edib.

-General Nəcəfov Hilal Əlimurad oğlu (1070-1074). İfadə verir ki, işgəncələrə general Hikmət Həsənov rəhbərlik edib və bu barədə Müdafiə Nazirliyinin rəhbərliyinə məlumat verib. (səhifə 1072)

- General Ağayev Zakir Samiddin oğlu (1074-) ifadə verir ki, işgəncələrə general Hikmət Həsənov şəxsən rəhbərlik edib, onun qanunsuz əməllərinə etiraz edib və bu barədə müdafiə naziri Zakir Həsənova məlumat verib, həmçinin Seyidov Cəfər Əziz oğlunun rəhbərliyi altında 641 saylı hərbi hissənin işgəncə prosesində iştirakını bildirib.

- Əhmədov Bahadır Allahverdi oğlu (1083-1089) işgəncələr (1084) və iştirakçılar haqqında ətraflı məlumat verir.

Səhifələr 1103-1182. Əlavə sübut növləri: protokollar, sertifikatlar, ekspert rəyləri və s.

Səhifələr 1189-1191. Məhkəmə qərar verdi:

- Ələsgərov Vüsal Əziz oğlu: 5 il 6 ay müddətinə azadlıqdan məhrum etmə,

- Niftəliyev Rəşid Ağaşərif oğlu: 5 il 6 ay müddətinə azadlıqdan məhrum etmə,

- Qarayev Ramil Fariz oğlu: 5 il 6 ay müddətinə azadlıqdan məhrum etmə,

- Ələsgərov Rüstəm Çərkəz oğlu: 9 il 6 ay müddətinə azadlıqdan məhrum etmə,

Budur məhkəmə oyunbazlığı.